# Peşə təmayüllü siniflərdə nələr öyrədilir?

Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçirilən "Peşə təmayüllü siniflərin təşkili" layihəsi 2019-2020-ci tədris ilindən fəaliyyət göstərir. Hazırda layihə ölkə üzrə paytaxt və bölgələrdə olmaqla 249 məktəb, 419 sinif, 838 ixtisas qrupu, 7000-dən çox şagird və 1087 müəllim heyətini əhatə edir. Qeyd edək ki, Lənkəranda da 7 məktəbdə peşə təmayüllü siniflər fəaliyyət göstərir. "Azərbaycan müəllimi"nin müsahibi Lənkəran şəhəri T.Bayraməlibəyov adına 2 nömrəli tam orta məktəbdə təşkil edilən Peşə təmayüllü siniflər üzrə qrup rəhbəri Cavid Nəsirzadədir. O, Lənkəran Dövlət Universitetində "Tarix və ictimaiyyət", "SAT GROUP"da "Marketinq mütəxəssisi" ixtisasları üzrə təhsil alıb. Təhsili bir peşə deyil, bir missiya kimi qəbul etdiyindən təhsil almaq onun üçün davamlı inkişaf və öyrənmə yoludur.



## Cavid Nəsirzadə:

### "Əsas vəzifəm peşə seçimi və karyera quruculuğu prosesində şagirdləri düzgün yönləndirmək, onlara bacarıqlar qazandırmaqdır"

*- Peşə təmayüllü siniflər üzrə qrup rəhbərinin vəzifələri nələrdir?*

- Peşə təmayüllü siniflər üzrə qrup rəhbərliyi, sadəcə bir vəzifə deyil, gənclərin gələcəyini formalaşdıran bir missiyadır. Hazırda fəaliyyətim bir neçə əsas istiqaməti əhatə edir. İlk il Liman, hazırda isə Lənkəran şəhərində fəaliyyət göstərirəm. Məqsədim şagirdlərə yalnız akademik biliklər vermək yox, həm də onları əmək bazarına hazırlamaq, öz potensiallarını tam şəkildə reallaşdırmalarına kömək etməkdir.

Əsas vəzifəm şagirdlərin peşə seçimi və karyera quruculuğu prosesində onları düzgün yönləndirmək, onlara bacarıqlar qazandırmaqdır. Bu çərçivədə tədris və inkişaf planları hazırlayır, onların icrasına nəzarət edirəm. Şagirdlərlə fərdi görüşlər keçirərək onların maraq və istəklərini dinləyir, doğru peşə seçimi etmələrinə kömək edirəm. Valideynlərlə fərdi söhbətlər aparıram. Çünki peşə seçimində ailənin rolu böyükdür. Onlara çağdaş əmək bazarının tələblərini izah edir, övladlarının bacarıqlarını dəstəkləmələri üçün tövsiyələr verirəm. Şagirdlərin ixtisaslarını praktik şəkildə mənimsəmələri üçün ustad dərsləri təşkil edirəm. İş dünyası ilə əlaqələr quraraq məzunlarımızın əmək bazarına uyğun inteqrasiyasını təmin etməyə çalışıram.

İxtisas fənlərini tədris edən müəllimlərlə sıx əməkdaşlıq edərək, tədrisin daha praktik və faydalı olmasını təmin edirəm. Özəl və dövlət müəssisələri ilə əməkdaşlıq qururam, real iş mühitini şagirdlərə tanıdıram. Peşə seçimi ilə bağlı məsləhət saatları təşkil edərək, şagirdlərə gələcək təhsil və karyera yollarını göstərirəm. Onları ruhlandırmaq, hədəflərinə inamlarını artırmaq üçün motivasiya görüşləri təşkil edirəm. Çünki düzgün motivasiya, istedadı üzə çıxaran ən güclü alətdir.

*- Peşə təmayüllü siniflərdə hansı peşələr öyrədilir? Bir şagird eyni zamanda müxtəlif peşələri öyrənə bilər?*

- Peşə təmayüllü siniflər layihə çərçivəsində dörd əsas profil üzrə formalaşdırılıb: kənd təsərrüfatı üzrə aqronomluq, təmir-tikinti üzrə kombi-kondisioner ustası, dülgərlik, mebel quraşdırma ustası, çilingərlik, xidmət sektoru üzrə aşpazlıq, bərbərlik, dərzilik, qənnadıçılıq, IT və rəqəmsal texnologiyalar üzrə helpdesk, qrafik dizayner, kompüter operatorluğu.

Layihə çərçivəsində şagirdlər əsasən bir istiqamət üzrə ixtisaslaşır. Lakin bəzi peşələr bir-biri ilə əlaqəli olduğuna görə inteqrativ yanaşma tətbiq edilir və şagirdlər əlavə bacarıqlara da yiyələnə bilirlər. Bir şagird eyni zamanda müxtəlif, hətta bir-birinə tam əks olan peşələri də öyrənə bilər. Bu yanaşma şagirdlərə daha çox seçim imkanı yaradır və onların fərqli sahələrdə özlərini sınayaraq gələcək karyeralarını daha doğru planlaşdırmalarına kömək edir.

*- Peşə təmayüllü siniflər necə yaradılır?*

- Peşə təmayüllü siniflərin yaradılması Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş strategiya və planlar əsasında həyata keçirilir. Yeni siniflərin açılacağı məktəblərin seçilməsi bir neçə vacib meyar əsasında aparılır: regionun əmək bazarında olan tələbatı, məktəbin infrastrukturu və imkanları, şagirdlərin marağı və say göstəriciləri nəzərə alınır. Amma bu proses, təkcə nazirliyin qərarı ilə məhdudlaşmır. Məktəblər də müraciət edərək öz təkliflərini irəli sürə bilər. Müəyyən meyarlara cavab verən məktəblərdə peşə təmayüllü siniflərin açılması mümkün olur.

*- Bu sinifləri bitirənlərə tam orta təhsil haqqında sənədlə yanaşı, bitirdiyi ixtisas üzrə sertifikat verilir. Bu sertifikat sahibləri özlərinə əmək bazarında rahatlıqla iş tapa bilir?*

- Bəli. Bu sertifikat onların əmək bazarında tanınan və rəsmi şəkildə təsdiqlənmiş bacarıqlara sahib olduğunu sübut edir. Beləliklə, məzunlarımız istənilən müəssisə və şirkətlərdə peşələrinə uyğun iş tapa, kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilirlər. Layihənin əsas məqsədlərindən biri gəncləri əmək bazarının tələblərinə uyğun peşə bacarıqları ilə təmin etməkdir. Bu səbəbdən dərslər, yalnız nəzəriyyə ilə məhdudlaşmır, praktiki məşğələlər və real iş mühiti təcrübəsi də əsas yer tutur. Əsas hədəf məzunların əmək bazarına özlərinə rahatlıqla yer tapa bilməsi və peşəkar kadr kimi formalaşmasıdır. Eyni zamanda, şagirdlər peşə sahəsində daha dərin biliklər əldə etmək üçün peşə təhsil müəssisələrinə, kolleclərə və hətta uyğun ali təhsil ixtisaslarına yönləndirilə bilirlər.

*- Peşə təmayüllü siniflərdə, təkcə hər hansı peşənin sirləri öyrədilmir, eyni zamanda əsas səriştələr və müxtəlif profilli istiqamətlər üzrə fənlər də tədris olunur. Ayrı-ayrı fənləri tədris edən kadrlarla bağlı çatışmazlıqlar olur, yoxsa belə kadrlar kifayət qədərdir?*

- Mən sahibkar olduğum üçün əsas səriştələr fənni mənim üçün olduqca asandır. Lakin, bəzən spesifik mövzularda həmin sahənin peşəkarlarını dərsə dəvət edirəm. Bu, şagirdlərin əmək bazarının real tələbləri və praktik biliklərə birbaşa çıxışını təmin edir. Şagirdlər üçün bu cür dərslər daha maraqlı və interaktiv olur, çünki onlar öz sahəsində uğur qazanmış insanlardan bilavasitə öyrənmək imkanı əldə edirlər. Kadr çatışmazlığı məsələsinə gəlincə, bu sahədə müəyyən boşluqlar var. Çünki peşə təmayüllü siniflər yeni tətbiq olunur və bu istiqamətdə tam ixtisaslaşmış mütəxəssislər kifayət qədər deyil. Lakin biz bu çatışmazlığı aradan qaldırmaq üçün müxtəlif sahələrin mütəxəssislərini dərslərə dəvət edirik. Müəllimlər üçün peşəkar inkişaf təlimləri təşkil edirik. Özəl sektorla əməkdaşlıq edərək sahə üzrə ekspertlərin təcrübəsindən yararlanırıq. Gələcəkdə bu istiqamətdə daha çox ixtisaslı kadrların hazırlanması və müasir əmək bazarının tələblərinə uyğun təhsil modelinin formalaşdırılması prioritet hədəflərimizdən biridir.

*- Eyni zamanda təhsilin idarə olunması, təhsil və karyera üzrə mütəxəssissiniz. Bu sahədə hansı işləri görürsünüz?*

- Təhsilin idarə olunması, təhsil və karyera planlaması sahəsində fəaliyyətim, təkcə bilik ötürməklə məhdudlaşmır. Mən şagirdlərin, abituriyentlərin, tələbələrin və hətta valideynlərin gələcək planlarını daha sistemli, daha məlumatlı və daha effektiv şəkildə qurmalarına dəstək oluram.

Lənkəran-Astara Regional Təhsil İdarəsinin dəstəyi ilə 2022-ci ildən etibarən 21 məktəbdə 8, 9, 10 və 11-ci siniflər üçün "Haradan başlamalıyıq?" adlı təlimlər keçmişəm. Bu təlimlərdə yalnız ixtisas seçimi ilə bağlı istiqamət vermirəm, eyni zamanda şagirdlərə öz maraq dairələrini, bacarıqlarını, əmək bazarının tələblərini dərk etməyə kömək edirəm. Çünki düzgün ixtisas seçimi təkcə akademik uğurun deyil, eyni zamanda şəxsi və peşəkar inkişafın da əsasını təşkil edir. Təhsil idarəçiliyi sahəsində isə innovativ yanaşmalar üzərində işləyirəm. Müasir sistemlər və metodlar vasitəsilə artıq şagirdlərin istedadlarını əvvəlcədən təyin etmək mümkündür. Bu yanaşma şagirdlərin güclü tərəflərini erkən yaşda aşkar edərək onların daha uğurlu karyera yolu seçmələrinə kömək edir. Mən də bu sistemlərin tətbiqi, fərdi yanaşmaların formalaşdırılması və şagirdlərin potensiallarının maksimum səviyyədə inkişaf etdirilməsi üçün çalışıram.

**Nilufər HACILI,**
*Lənkəran-Astara üzrə regional təmsilçi*

Azərbaycan müəllimi.- 2025.- 22 fevral, №7.- S.11.